Tyutor hazırlığı kursu ilə bağlı elan

Lənkəran Dövlət Universitetində cari ilin iyul ayında tyutor hazırlığı kursunun təşkil olunması nəzərdə tutulmuşdur. Kursda iştirak üçün qeydiyyatdan keçmək istəyən şəxslər 30.06.2022-ci il tarixinədək aşağıda qeyd olunanları universitetin 1-ci korpusunda yerləşən Tədrisin təşkili və təlim texnologiyaları mərkəzinə (2-ci mərtəbə, 211 nömrəli otaq) şəxsən özləri təqdim etməlidirlər:

1. CV
2. Şəxsiyyət vəsiqəsinin əsli və surəti;
3. Əvvəlki illərin məzunları üçün bakalavr diplomunun surəti (magistr dərəcəsi olanlar üçün əlavə olaraq magistr diplomunun surəti);
4. Bu ilin məzunları üçün məzunu olduqları ali təhsil müəssisəsindən təhsilini bitirmələri haqqında arayış (LDU-nun məzunları istisna olmaqla);
5. Tərcümeyi-hal;
6. 3x4 ölçüdə 4 (dörd) ədəd fotoşəkil;
7. Kadrların şəxsi uçot vərəqəsi (doldurulmuş halda);
8. Kursda iştirak etməklə bağlı yazılı müraciət (ərizə nümunəsi veriləcək);
9. Sənədləri yerləşdirmək üçün fayl qovluğu.